# Qoşulmama Hərəkatına uğurlu sədrlik Azərbaycanın beynəlxalq nüfuzunu artırır

***Qoşulmama Hərəkatı bəşəri dəyərlərin təbliğinə xidmət edir və bütün ölkələrin suverenliyi, müstəqilliyi və ərazi bütövlüyünə sadiqliyini nümayiş etdirir. Qoşulmama Hərəkatı özündə 120 ölkəni birləşdirməklə BMT Baş Assambleyasından sonra dünya dövlətlərinin təmsil olunduğu ən böyük siyasi təsisatdır.***

***Azərbaycan 2011-ci ildə Qoşulmama Hərəkatına üzv qəbul olunmuşdur. Qoşulmama Hərəkatında olduğu qısa müddət ərzində ölkəmiz beynəlxalq hüququn norma və prinsiplərini qətiyyətlə müdafiə etməkdə böyük nüfuz qazanmışdır.***

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

Hazırda respublikamız dünyanın davamlı olaraq inkişaf edən nadir ölkələrindəndir. Azərbaycan bu mənada Cənubi Qafqazın lider dövlətinə çevrilmişdir. Peşəkar səviyyədə həyata keçirilən uğurlu islahatlar nəticəsində ölkəmizin iqtisadiyyatı qısa zaman ərzində keçid dövrünü tamamlamışdır. Son illərdə Azərbaycan iqtisadiyyatı sürətlə inkişaf etmiş, ümumi daxili məhsul üç dəfədən çox artmışdır. Bu illər ərzində ölkəmizə 270 milyard dollardan artıq kapital qoyulmuşdur ki, bunun da yarısından çoxu xarici sərmayədir. Azərbaycanın xarici borcu ümumi daxili məhsulun 17 faizini təşkil edir. Bu göstəriciyə görə respublikamız dünyada yalnız 8 ölkədən geri qalır. Həyata keçirilən və davam edən islahatlar sayəsində ölkəmizdə yoxsulluq 5 faiz səviyyəsinə endirilmişdir. 68 min ailə ünvanlı sosial yardımdan faydalanır ki, bu ailələr 280 mindən çox insanı əhatə edir.

2004-cü ildən 2019-cu ilədək Azərbaycanda 3 min 200-dən çox məktəb tikilmiş, yaxud təmir edilmişdir. Ən önəmli göstəricilərdən biri də respublikamızın savadlılıq səviyyəsidir ki, bu göstərici 100 faizə yaxındır. Bütün sahələr üzrə dinamik inkişaf yolu götürən respublikamız beynəlxalq səviyyədə böyük nüfuz qazanmışdır. Uğurlu dövlət siyasəti Azərbaycanı regionun lider dövləti etməklə yanaşı, həm də dünya arenasında diqqət mərkəzində olan ölkələrdən birinə çevirmişdir. Bu diqqətin nəticəsidir ki, ölkəmiz son illər ərzində bir çox ölkə ilə ikitərəfli münasibətlərini, ticarət əlaqələrini gücləndirmişdir. Ölkəmizin beynəlxalq nüfuzu qlobal təşkilatların da diqqətindən yanınmamışdır. Azərbaycanla əməkdaşlıq, qarşılıqlı əlaqələrin gücləndirilməsi belə təşkilatların strategiyasına çevrilmişdir.

Təsadüfi deyil ki, bu gün Azərbaycan dünyanın ən böyük beynəlxalq təşkilatlarından biri olan Qoşulmama Hərəkatına (QH) sədrlik edir. Bu işin mahiyyətini anlamaq üçün əvvəlcə Qoşulmama Hərəkatının dünyadakı roluna, fəaliyyətinə diqqət yetirək. Yeri gəlmişkən, bu təşkilatın yaradılması fikri 1955-ci ildə Bandunq konfransında (İndoneziya) irəli sürülmüşdür. Qoşulmama Hərəkatı 1961-ci ildə ilkin olaraq "soyuq müharibəni" sakitləşdirmək, gərginliyi azaltmaq məqsədilə yaradılıb. 2012-ci ildən etibarən hərəkata üzv dövlətlərin sayı 120-yə çatmışdır. QH-yə üzv dövlətlər üzün tələblər BMT ilə oxşarlıq təşkil edir. Bunlar təməl insan hüquqlarına, bütün xalqların suverenliyə və ərazi bütövlüyünə hörmət, bütün irqlərin və xalqların milli müstəqillik hərəkatının tanınması, başqa ölkələrin daxili məsələlərinə müdaxilə etməkdən çəkinmək və sairdir.

Azərbaycan bu hərəkata 2011-ci ildən qoşulmuşdur. QH-yə üzv olmasından cəmi 8 il sonra – 2019 cu ildən etibarən (2019-2022) ölkəmiz təşkilatın sədri seçilmişdir. Qeyd edək ki, bu proses, hərəkata üzv dövlət və hökumət başçılarının 2016-cı ildə keçirilmiş Zirvə görüşündə növbəti sammitin Bakı şəhərində təşkil edilməsi və səsvermə nəticəsində sədrliyin Azərbaycana etibar olunması ilə başlamış, 2019-cu ildə isə rəsmiyyət qazanmışdır.

***Bu gün müstəqil Azərbaycan Respublikası demokratiya, insan hüquqları və azadlıqları kimi dəyərlərə sadiqdir. Ölkəmizdə bu dəyərlərin dərin tarixi kökləri var. Bir əsr bundan öncə müsəlman Şərqində ilk dəfə olaraq Azərbaycanda demokratik respublika qurulmuş, qadınlara səsvermə hüququ verilmişdir. Qeyd etmək lazımdır ki, bu mənada Azərbaycan hətta bir çox Qərb ölkələrini də qabaqlamış, demokratik inkişafı dövlət və millət prioritetlərinin ən birinci sırasına yüksəltmişdir. Ölkəmizin və xalqımızın zəngin tarixinə nəzər salsaq görərik ki, multikultural dəyərlər, bərabərlik, müxtəlif dinlərə və millətlərə mənsub əhalinin əmin-amanlıq şəraitində yaşaması Azərbaycanın qədim dövlətçilik ənənələrinin bir parçası olmuşdur. Bu gün Azərbaycanda bütün fundamental insani dəyərlər, qanunun aliliyi, eləcə də mətbuat azadlığı təmin olunur.***

Azərbaycan təşkilatın sədri qismində pandemiyaya qarşı qlobal səylərin səfərbər edilməsi üçün bir sıra beynəlxalq təşəbbüslərlə çıxış etdi. Dövlət başçımızın iyulun 13-də dediyi kimi, biz Qoşulmama Hərəkatının təmas qrupu ölkələrinin Zirvə görüşünün keçirilməsi təşəbbüsünü irəli sürdük və 2020-ci il mayın 4-də həmin tədbiri təşkil etdik: "Təmas qrupunun dünyanın müxtəlif regionlarını təmsil edən üzvləri ilə yanaşı, onlayn zirvə görüşündə BMT-nin Baş katibi, BMT Baş Assambleyasının sədri, Ümumdünya Səhiyyə Təşkilatının baş direktoru, Afrika İttifaqı Komissiyasının sədri, Avropa İttifaqının Ali nümayəndəsi və Avropa Komissiyasının vitse-prezidenti də iştirak etdilər".

Qeyd edək ki, zirvə görüşünün nəticəsi olaraq, həm də Azərbaycanın təşəbbüsü ilə Qoşulmama Hərəkatına üzv ölkələrin əsas humanitar və tibbi ehtiyaclarını əhatə edən məlumat bazası yaradıldı. Fəxr edə bilərik ki, Ümumdünya Səhiyyə Təşkilatı pandemiya ilə mübarizədə QH ölkələrinin mövcud ehtiyaclarının müəyyənləşdirilməsi üçün həmin məlumat bazasını istinad mənbəyi kimi istifadə edir. Həmin görüş zamanı ölkə başçısı QH adından BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində koronavirusla mübarizəyə həsr edilmiş xüsusi sessiyasının keçirilməsi təşəbbüsünü irəli sürmüşdü. Daha sonra bu təşəbbüs BMT-yə üzv olan 130-dan çox dövlət tərəfindən dəstəkləndi və 2020-ci il dekabrın 3-4-də xüsusi sessiya baş tutdu. Beləliklə, QH-yə sədr seçilməsi ölkəmizə göstərilən hörmətin, inamın və etimadın təzahürüdür.

Azərbaycan hərəkata sədrliyi zamanı öz fəaliyyət istiqamətini tarixi Bandunq prinsiplərinə əsasən qurmuşdur. Təsadüfi deyil ki, ölkələrin daxili işlərinə qarışmamaq, ərazi bütövlüklərinin qorunması, qarşılıqlı əlaqələrin gücləndirilməsi və əməkdaşlığın təşviqi kimi müddəaları özündə cəm edən Bandunq prinsipləri Azərbaycanın xarici siyasət prioritetləri ilə üst-üstə düşür.

Ölkəmizin bu istiqamətdə qarşıya qoyduğu birinci məqsəd, beynəlxalq hüququn normalarına tam şəkildə əməl olunmasını təmin etməkdir. Prezident İlham Əliyevin də dediyi kimi, bu mənada görüləcək çox iş var. Əlbəttə, bu baxımdan BMT-nin fəaliyyətində də islahatlara böyük ehtiyac duyulur. Ərazi bütövlüyü məsələsinə gəldikdə isə bildirmək lazımdır ki, sərhədlərin güc yolu ilə dəyişdirilməsi, bu yolla ölkələrin suverenliyinin pozulması, eləcə də daxili işlərə müdaxilə yolverilməz hallardır.

Azərbaycan Qoşulmama Hərəkatına sədrliyi müddətində millətlər və təşkilatlararası dialoqun qurulması və inkişaf etdirilməsi, eləcə də əməkdaşlıq coğrafiyasının genişləndirilməsi üçün səylər göstərmişdir. Bu təşkilata üzv dövlətlərin böyük əksəriyyəti inkişaf etməkdə olan ölkələrdir. Buna görə də hərəkat çərçivəsində sadəcə bu baxımdan deyil, iqtisadi sahədə də əməkdaşlığın inkişaf etdirilməsi çox önəmlidir. Əlbəttə, bu mənada da xeyli işlər görülüb və görülməkdədir. Xüsusi vurğulanmalı məsələlərdən biri də, Azərbaycanın "77-lər qrupu"na qoşulması hadisəsidir. Bu, sosial-iqtisadi sahədə maraqların beynəlxalq miqyasda birləşdirilməsinə və səylərin artırılmasına xüsusi töhfələr verir.

Eyni zamanda, Azərbaycanın sədrliyi zamanı az inkişaf etmiş, dənizə çıxışı olmayan kiçik ölkələrin üzləşdiyi təhdidlərə, problemlərə diqqət artırılmışdır. Qeyd edək ki, 2005-ci ildən başlayaraq, Azərbaycan 90-dan çox ölkəyə humanitar və texniki yardımlar göstərmişdir. Ölkəmizin Beynəlxalq İnkişafa Yardım Agentliyi müxtəlif dövlətlərdə yoxsulluğun azaldılması, elm, mədəniyyət, səhiyyə, informasiya texnologiyalarının inkişafı, su resurslarından səmərəli istifadə olunması və digər sahələr üzrə layihələr həyata keçirir. Bundan əlavə, 2018-ci ildən etibarən Qoşulmama Hərəkatına üzv olan dövlətlərin vətəndaşlarının ölkəmizdə təhsil alması üçün təqaüd ayrılmışdır. Bütün bunlar Azərbaycanın QH-də, ümumilikdə, beynəlxalq arenada nüfuzunu artıran amillərdən bəziləridir.

Yeri gəlmişkən, iyul ayının 13-də Qoşulmama Hərəkatının Xarici İşlər nazirlərinin onlayn formatda aralıq konfransı keçirilib. Hərəkatın sədri kimi Prezident İlham Əliyevin videoformatda çıxışı konfransda təqdim olunub. Videomüraciətdə ölkə başçısı əvvəlcə sədrliyi müddətində Azərbaycanın həyata keçirdiyi uğurlu islahatlardan, o cümlədən beynəlxalq səviyyəli təşəbbüslərdən bəhs edib. Daha sonra Prezident İlham Əliyev 44 günlük Vətən müharibəsi nəticəsində torpaqlarımızın işğaldan azad edildiyi barədə konfrans iştirakçılarına məlumat verib. Dövlətimizin başçısı xüsusi vurğulayıb ki, bu, təkcə Azərbaycanın deyil, eləcə də beynəlxalq hüququn və Qoşulmama Hərəkatının fundamental dəyərlərinin qələbəsidir: "Azərbaycanın şanlı Qələbəsi beynəlxalq hüququn, ədalətin və Qoşulmama Hərəkatı dəyərlərinin təntənəsidir. Biz Qoşulmama Hərəkatı ölkələrinin beynəlxalq hüquqa və BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq, Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə müntəzəm dəstəyini yüksək qiymətləndiririk."

Prezident İlham Əliyevin videomüraciətindən sonra nazirlər konfransının siyasi bəyannaməsi müzkirəyə çıxarılaraq qəbul edilib. Qeyd etmək yerinə düşər ki, təşkilatın tarixində ilk dəfə olaraq, ölkəmizin sədrliyi dövründə Azərbaycanın təşəbbüsü ilə təşkil olunmuş QH Modeli Beynəlxalq Simulyasiya Təlimi bəyannamədə yüksək qiymətləndirilib. Bundan əlavə təşkilata üzv dövlətlər adıçəkilən bəyannamədə COVID-19 pandemiyasına qarşı mübarizə üzrə BMT Baş Assambleyasının xüsusi sessiyasının çağırılması təşəbbüsünə, Qoşulmama Hərəkatının uğurlu sədrliyinə və nəzərdə tutulandan 1 il artıq sədrlik etməyə hazır olduğuna görə Prezident İlham Əliyevə və Azərbaycan xalqına təşəkkür ediblər.

Qeyd edək ki, Azərbaycanın bu təklifi qəbul edilib. Beləliklə, 2022-ci ildə 3 illik sədrliyi yekunlaşmalı olan Azərbaycan növbəti sədr Uqandanın hazırda sədrliyi təhvil ala bilməyəcəyini açıqlamasından sonra daha bir il – 2023-cü ilin sonunadək Qoşulmama Hərəkatının sədri olacaq.

***İmran ƏLİYEV,***
***"Xalq qəzeti"***